

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

6 may 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 17 (3530)


## PREZİDENT İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİNİ QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib.

Gürcüstanın Baş nazirini salamlayan Prezident İlham Əliyev onu Azərbaycanda görməyindən məmnun olduğunu, səfərin qardaşlıq münasibətlərimizi daha da gücləndirəcəyini bildirib.

Birgə enerji və nəqliyyat layihələrindən söz açan dövlətimizin başçısı bu layihələrin regionda siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişdirdiyini diqqətə çatdırıb. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi layihəsinin təkcə Cənubi Qafqazda deyil, ümumilikdə Avrasiya regionunda inkişaf, sabitlik, proqnozlaşdırma, əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Gürcüstan hökumətinin həyata keçirdiyi islahatların əlverişli investisiya mühitinin yaradılmasında mühüm rol oynadığını deyən ölkəmizin rəhbəri Azərbaycanın Gürcüstan iqtisadiyyatında ən böyük investorlardan biri olduğunu qeyd edib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ümummilli lider Heydər Əliyevin "Tale belə müəyyənləşdirib və bəxtimiz gətirib ki, biz qonşuyuq, gürcü və Azərbaycan xalqları qonşudurlar". sözlərini xatırladıb.

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev aprelin 30-da Meron dağında keçirilən dini mərasim zamanı çox sayda insanın həlak olması ilə əlaqədar İsrail Dövlətinin Prezidenti zati-aliləri cənab Reuven Rivlinə başsağlığı teleqramı göndərib.*

*Dövlətimizin başçısı aprelin 30-da qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyasının tikintisi üçün Azərbaycan Respublikası Hökuməti adından imzalanmış müqavilənin təsdiq edilməsi haqqında sərəncam imzalayıb.*

*Ölkəmizin rəhbəri aprelin 30-da Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsbergisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Mayın 3-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.*

*Dövlətimizin başçısı mayın 3-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının etimadnaməsini qəbul edib.*

*Mayın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavljeviçin etimadnaməsini qəbul edib.*

## Polis hazırlıqlara başlayıb

### "Formula-1"in təhlükəsizliyi yüksək səviyyədə təmin olunacaq

"Formula-1" Azərbaycan Qran-Prisinin başlamasına sayılı günlər qalır. Belə ki, Qran-Prinin növbəti mərhələsinin iyunun 4-6-da Bakı şəhər halqasında keçirilməsi planlaşdırılıb.

Yarışın planına uyğun olaraq paytaxt polisi də təhlükəsizlik tədbirləri üçün hazırlıqlarını tamamlayıb.

Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsindən "Polis"ə verilən məlumata görə, COVID-19 pandemiyası səbəbindən ötən il təxirə salınan Qran-Prinin bu mərhələsində ictimai asayişin və təhlükəsizliyin təmin edilməsinə cəlb olunacaq polis əməkdaşları tam vaksinasiya olunub. Pandemiya hələ də davam etdiyinə görə polislər xidmətlərini sosial məsafə saxlamaq, tibbi maskadan istifadə etmək kimi xüsusi karantin rejiminin tələblərini gözləməklə həyata keçirəcəklər.

Virusun yayılma təhlükəsini nəzərə alaraq yarışın tamaşaçısız keçirilməsi barədə təşkilatçıların verdiyi qərar Qran-Prinin əsas yeniliyi sayılır. Bakı sakinləri və qonaqlar üçün növbəti yenilik isə yarış keçirilən ərəfədə dənizkənarı bulvarda hərəkətə qoyulan məhdudiyyətin aradan qaldırılmasıdır. Əvvəlki yarışlar zamanı "Azneft dairəsi" və "Dəniz vağzalı" istiqamətlərindən bulvara giriş qadağan olunur, yalnız bileti olan tamaşaçılar buraxılırdı. Bu il isə istənilən şəxsin bulvara girişinə icazə veriləcək. Buna görə bulvar ərazisində əlavə piyada polis naryadı xidmət aparacaq.

İdarədən bildirilib ki, yarış tamaşaçısız keçirilsə də, içəridə texniki işçi heyəti çalışacaq. Bura "təmiz ərazi" sayılır. Həmin ərazidə xidmət edəcək əməkdaşlardan test götürüləcək, sağlamlıqları imkan verən əməkdaşlar xidmətə buraxılacaq.

Xatırladaq ki, ölkəmizdə əvvəlki "Formula-1" Qran-Pri yarışları 2017, 2018 və 2019-cu illərdə keçirilib.

# İYİRMİ DOQQUZ İLLİK HƏSRƏTƏ SON QOYULDU

***Redaksiyadan:** Vətən andı içən oğullar 44 günlük savaşda torpaq həsrətinə, yurd nisgilinə son qoyub bayrağımızı Ağdama, Laçına, Zəngilana, Qubadlıya, Kəlbəcərə, Cəbrayıla, Hadruta, Füzuliyə, Xüdafərinə və Şuşaya sancdılar.*

***Bu gün "Dəmir yumruq" Vətənin keşiyini çəkir, onun sərhədlərini yenidən qurur, onu gecəli-gündüzlü qoruyur. Azad olunmuş torpaqlarımızın sinəsində top mərmilərinin açdığı yaralarda indi yanağı xallı lalələr baş qaldırıb. Qərinə yaşına çatmayan Vətən həsrətimiz bu illər ərzində ağıya, bayatıya dönüb sinəmizdə od qaladı. İndi hər şey-illərin əzabı geridə qalıb və biz hər bir soydaşımıza bundan sonra azad olunmuş torpaq xoşbəxtliyi arzulayırıq.***







Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərə getmək, dədə-baba yurdlarını, doğmalarının, əzizlərinin məzarlarını ziyarət etmək məqsədilə vətəndaşlar tərəfindən Daxili İşlər Nazirliyinə xeyli sayda müraciət daxil olub.

Müraciətlərə DİN rəhbərliyi tərəfindən yüksək həssaslıqla yanaşılıb və cavablandırılıb. İşğaldan azad olunmuş ərazilərə mina təhlükəsi səbəbindən gediş-gəlişin qadağan olunması onların diqqətinə çatdırılıb. Vətəndaşlarımıza qanunsuz yollarla həmin ərazilərə keçərək öz həyatlarını riskə atmamaq tövsiyə olunub.

Lakin ömrünün ahıl çağlarını yaşayan, şəhid olmuş övladının, ömür-gün yoldaşının məzarını görmək üçün müraciət edənlərdən bir neçəsinin istəyi nəzərə alınıb və yerinə yetirilib.

Daxili İşlər Nazirliyinə 1993-cü ilin avqust ayının 15-də Cəbrayıl rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olduqdan sonra orada dəfn edilən oğlu Ramiz Ağayevin məzarını ziyarət etmək üçün düz 28 il həsrətlə gözlədiyini və yaşadığını yazan 84 yaşlı Güldəstə Ağayevanı DİN rəhbərliyi sevindirib. Müvafiq təhlükəsizlik tədbirləri gözlənilməklə aprelin 23-də Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Güldəstə ananın və onun ailə üzvlərinin Cəbrayıl rayonuna səfəri təşkil edilib.





Azərbaycanın Milli Qəhrəmanı Baxşeyiş Paşayevin həyat yoldaşı, Ağdam rayon sakini Sayalı Paşayeva da Daxili İşlər Nazirliyinə müraciət edərək 1992-ci ilin iyul ayının 12-də döyüş yoldaşları ilə düşmənin 7 postunu ələ keçirdikdən sonra şəhidlik zirvəsinə ucalan və Ağdamdakı Şəhidlər Xiyabanında torpağa tapşırılan ömür-gün yoldaşının qəbrini ziyarət etmək üçün ona köməklik göstərilməsini xahiş edib.

Onun bu müraciəti dərhal Nazirliyin rəhbərliyinin nəzarətinə götürülüb. Şəhid Baxşeyiş Paşayevin Ağdam rayonundakı məzarı tapıldıqdan sonra yerləşdiyi ərazinin minalardan təmizlənməsi üçün lazımi tədbirlər görülüb. Müvafiq təhlükəsizlik qaydaları gözlənilməklə mayın 1-də Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Sayalı ana və onun ailə üzvlərinin Ağdam rayonunun mərkəzində yerləşən Şəhidlər Xiyabanına səfəri təşkil edilib. İyirmi doqquz illik həsrətin sona çatdığı həmin gün, həm də Milli Qəhrəmanın doğum günü idi...



# MÜASİR AZƏRBAYCANIN QURUCUSU VƏ BANİSİ

## Onun xidmətləri Vətən tariximizin ən parlaq səhifələrindəndir

**Mayın 10-da ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünü qalib xalq kimi qeyd edəcəyik. Bu gün tariximizə qızıl hərflərlə yazılan zəfərimizdə, eləcə də beynəlxalq siyasi arenada qazandığımız hər bir uğurda onun imzası var. O, zəmanəmizin böyük azərbaycanlısı, azərbaycanlı olduğu üçün fəxr edən və ömrünü xalqına bağışlayan Lider idi. Azərbaycana rəhbərlik etdiyi bütün tarixi dönəmlərdə o, öz xalqını, onun rifahını, ən əsası, azadlığını düşündü. Məhz bununçün də bütün çətinliklərə sinə gərib hələ sovetlər dönəmində Azərbaycanı dünyaya tanıtdı.**



Sovet ideologiyasının qılıncının sağının və solunun kəsdiyi bir dövr olsa da öz milli kimliyinə söykənərək uzunmüddətli inkişaf strategiyası hazırlayan Heydər Əliyev Azərbaycanın iqtisadi, intellektual, mədəni, elmi-texniki resurslarını səfərbər etdi, bütün mövcud potensialı milli oyanış yönündə hərəkətə gətirdi. Məhz onun sayəsində Azərbaycan qısa müddətdə böyük sənaye ölkəsinə çevrildi. Azərbaycanlıların milli özünüdərk prosesini gücləndirməklə ölkənin bütün strukturlarında, xüsusilə də milli təhlükəsizlik və hüquq mühafizə orqanlarında onların söz sahibi olmaq kimi strateji məsələlərinin həlli yollarını tapmaq Heydər Əliyevi narahat edən problemlərdən biri idi. Milli düşüncəli gənclərin cəmiyyətin hərəkətverici qüvvəsi olaraq sağlam cəmiyyət quruculuğuna cəlb olunmaları, onların müsbət potensialından dövləti dayaqların möhkəmləndirilməsinə istifadə etməyi hədəfə alan ulu öndər bütün çətinliklərə baxmayaraq on mindən çox gənci Azərbaycandan kənarda təhsil almağa göndərdi və bununla da milli kadr problemi öz həllini tapdı.

Ulu öndər sovetlər birliyinin süqutunu görürdü. O, dağılmış böyük məmləkətin yerində yaranacaq dövlətlərin içində Azərbaycanı ən yüksəklərdə görmək arzusu ilə bütün səylərini, bilik və bacarığını səfərbər etmişdi.

SSRİ dağıldıqdan sonra Azərbaycan yenidən müstəqilliyinə qovuşsa da onu itirmək təhlükəsi ilə üzbəüz qaldı. Biri-birini əvəz edən hakimiyyətlərin yarıtmazlığı səbəbindən torpaqlarımız işğal olundu, soydaşlarımız qaçqın və məcburi köçkünə çevrildi.

Azərbaycan adlı məmləkətin taleyinin tükdən asılı qaldığı bir dönəmdə xalq yenə də təkidlə onu hakimiyyətdə görmək üçün meydanlara axışdı. O, gəldi və çətinliklərə baxmayaraq bugünkü müasir, modern Azərbaycanın əsasını qoydu.

Ulu öndərin xidmətlərini sadalamaqla bitməz. Onları yenidən xatırlamaq üçün bu yazı ilə sizləri baş-başa buraxırıq.

❖ Ulu öndər SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən general-mayor rütbəsinə layiq görülən ilk azərbaycanlıdır.

❖ Qədim Qəbələ şəhərinin qalıqlarını qorumaq üçün o, Qəbələ RLS-in yerini dəyişdirtdirmişdir.

❖ 1977-ci ildə N.Gəncəvinin məqbərəsinin Şəmkirə köçürülməsinə mane olmuşdur.

❖ 1977-ci ilin noyabrında SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin məxfi iclasında Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana verilməsi ilə bağlı qərar layihəsi hazırlanır. Bundan xəbər tutan Heydər Əliyev gecə ikən tarixçi İqrar Əliyevlə danışır. Professorun bu məsələ ilə əlaqədar 1945-ci ildə Mircəfər Bağırov üçün yazdığı arayış arxivdən tapılır və yenidən işlənilir. Arayış hazır olandan sonra MK-nın iclası keçirilir, təsdiqlənir. Heydər Əliyev bu sənədlə birlikdə Brejnevin yanına gedir və həmin məxfi layihənin nəinki qəbuluna, heç müzakirəsinə də imkan vermir.

❖ Onun uzaqgörən siyasəti nəticəsində dövlətçiliyimizin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alınmışdır.

❖ 1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması onun adı ilə bağlıdır.

❖ Bu gün adını daşıdığı Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri ilə Azərbaycan nefti dünya bazarına debüt etdi.

❖ O, Vətənimizi bölünməkdən və parçalanmaqdan qoruyan Azərbaycançılıq ideologiyasının banisidir.

❖ Heydər Əliyevin prezidentliyi zamanında milli ordu quruculuğunda ciddi dönüş yaranmışdır. Məhz bundan sonra düşmənə əks-zərbələr endirilmiş və 1994-cü ilin mayında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəsə nail olunmuşdur.

❖ 1995-ci ilin noyabrında referendum yolu ilə Azərbaycan Respublikasının ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, Azərbaycanda ölüm cəzasının ləğv olunması, "Polis haqqında Azərbaycan Respublikasının qanunu", "Bələdiyyə seçkiləri haqqında qanun"un və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

*"Polis"*

# Güvənc yeri bilirlər

## Zəhmətə, inama və etibara söykənən fəaliyyətimiz rəğbət doğurur

**İnama, etibara söykənən polis-vətəndaş həmrəyliyi sayəsində hər kəs yaxşı bilir ki, polis çətin anlarda onun köməyinə gələcək, haqq-ədaləti bərpa edəcək. Daxili İşlər Nazirliyinə ünvanlanan məktubların əksəriyyətində bu fikirlər yer alır.**

"Dələduzluqla üzləşdiyim zaman ümid yerim polis oldu. Şikayətimə əsasən, pulumu alıb qaytarmayan şəxs tapıldı və mənə dəyən maddi ziyanın ödətdirilməsi təmin edildi. Cəmiyyətdə üzləşdiyimiz belə hallara qarşı Azərbaycan Polisinin apardığı mübarizə, göstərmiş olduğu operativ reaksiya məni çox məmnun etdi. Əmin oldum ki, bu gün artıq ölkəmizdə vətəndaşlarımızın görmək arzusunda olduğu polis imici formalaşıb. İnsanlarımızı narahat edən belə hallara qarşı göstərilən diqqətə və həyata keçirilən operativ tədbirlərə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığımı bildirirəm". **Bu fikirlər Abşeron rayon sakini Şahlar Aslanovun** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.



**Balakən rayonu Katex kənd sakinləri adından Cavanşir Piriyev** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda xidməti və vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə fəallıq və qətiyyət nümayiş etdirdiklərinə görə Azərbaycan Polisinin xidmətinin sakinlər tərəfindən yüksək dəyərləndirildiyini yazır.

Sosial şəbəkə izləyicimiz **Cavid Hüseynzadə** həftə sonları "Sabunçu vağzalı" adlanan ərazidə qeyri-qanuni parklanmanın piyadaların hərəkətinə maneə yaratması barədə müraciətinə dərhal reaksiya verildiyini və Sabunçu DYPŞ-nin əməkdaşları tərəfindən təhlükəsizlik tədbirlərinin həyata keçirildiyini qeyd edir.

**Sumqayıt şəhər sakini İbrahim Əliyev** sosial şəbəkə üzərindən yazaraq ŞPİ əməkdaşları tərəfindən "COVID-19" infeksiyasının qarşısının alınması məqsədilə keçirilən nəzarət-profilaktiki tədbirlərin alqışa layiq olduğunu bildirir.

**Bakı şəhər sakini Həbibə Qafarova** isə təşəkkür məktubunda avtomobili ilə hərəkətdə olarkən digər bir nəqliyyat vasitəsinin yol hərəkəti qaydalarını kobud şəkildə pozması ilə bağlı müraciətinə operativ baxıldığını, araşdırma aparılaraq müvafiq tədbirlərin görüldüyünü yazır.

Ona məxsus mağazadan oğurluq edənlərin tez bir zamanda aşkarlanmasında peşəkarlıq nümayiş etdirən Lənkəran ŞRPŞ əməkdaşlarının xidməti fəaliyyətini təqdir edən **şəhər sakini Həsənağa Məmmədovun** da məktubu təşəkkür doludur.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Tarixi Qələbədən 76 il ötür

**Faşizm üzərində Qələbənin 76-cı ildönümünün qeyd olunmasına sayılı günlər qalır. Heç də asan başa gəlməyən bu qələbə naminə 600 mindən çox soydaşımız ordu sıralarına çağırılaraq Vətənin müdafiəsinə qalxmışlar. Onlardan 170 mindən çoxunun orden və medallarla təltif edilməsi, 130 nəfərin isə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülməsi göstərilən şücaətin və qəhrəmanlığın bariz nümunəsi idi.**

Azərbaycanın daxili işlər orqanlarının əməkdaşları da ön cəbhə ilə yanaşı, arxa cəbhədə yüksək peşəkarlıq nümunələri göstərmişlər. Müharibədən sonra Vətənin igid oğullarının DİO-da qəbulu hesabına daxili işlər orqanları daha da güclənmiş, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun, asayişin qorunmasında yüksək nəticələr əldə edilmişdir. Sovet İttifaqı Qəhrəmanı Xəlil Məmmədov, general-leytenant Arif Heydərov, Sovet İttifaqı qəhrəmanları Səlahəddin Kazımov, Mehdi Quliyev, "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş Həmzə Babaşov, İtaliya və Sloveniya partizan hərəkatının üzvü Mirdamət Seyidov, Sosialist Əməyi Qəhrəmanı, general-mayor Hüseyn Cavadov daxili işlər orqanlarındakı xidmətləri ilə milli kimliyimizin qürur yerinə çevrilmişlər.




Ulu öndər Heydər Əliyev müharibə veteranlarının xidmətlərini çox yüksək qiymətləndirərək deyirdi: «Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur».

Bu gün həmin müharibənin iştirakçısı olan insanlara göstərilən böyük diqqət və qayğı isə Prezident İlham Əliyevin mənəvi dəyərlərimizə bağlılığının, öz xalqının qəhrəmanlıq salnaməsinə dərin ehtiramının və ulu öndərin ideyalarını yaşatmasının bariz təcəssümüdür.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# İşğaldan azad olunmuş əraziyə keçmək istəyirdi

Aprelin 22-də səhər saat 06:00 radələrində Ağdam rayon sakini Rəşad Əliyev Təzəkənd kəndi ərazisindən işğaldan azad olunmuş əraziyə icazəsiz keçərkən saxlanılıb. Onun barəsində İnzibati Xətalar Məcəlləsinin 535-ci maddəsi (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) ilə protokol tərtib olunaraq rayon məhkəməsi tərəfindən 15 gün müddətinə həbs inzibati tənbeh tədbiri tətbiq edilib.

Həkim müayinəsi nəticəsində "COVID-19" virusuna yoluxduğu aşkarlandığından o, müalicə alması üçün evə buraxılıb.

Lakin mayın 2-də səhər saat 05:00 radələrində R.Əliyev yaşadığı evi tərk edib. O, "VAZ-21015" markalı avtomobillə Təzəkənd kəndi ərazisində yerləşən nəzarət postundan keçərkən polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq postun şlaqbaumunu qıraraq işğaldan azad olunmuş əraziyə keçməyə cəhd göstərib. Polis əməkdaşları tərəfindən onun bu cəhdinin qarşısı alınıb, tibbi prosedurlar gözlənilmədən evinə qaytarılıb.

R.Əliyev barəsində xəstəliklərin yayılmasına real təhlükə yaratdığına görə Cinayət Məcəlləsinin 139.1-ci maddəsi ilə cinayət işi başlanılıb.

*N.Cavadov*

# Profilaktik tədbirlər gücləndirilir

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam etdirilir.**

Mayın 1-də Abşeron rayonunun Mehdiabad qəsəbəsində keçirilən tədbir zamanı qəsəbə ərazisində sənaye və məişət tullantılarının qalaqlanması aşkar edilib. İnzibati Xətalar Məcəlləsinin 271-ci maddəsinin (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) tələblərini pozduğuna görə Mehdiabad Bələdiyyəsinin sədri V.Hüseynov barəsində protokol tərtib edilərək 3 min manat məbləğində inzibati tənbeh tədbiri tətbiq olunub.

Binəqədi rayonu ərazisində keçirilən tədbir zamanı isə Biləcəri qəsəbəsinin Vağzalyanı küçəsindəki binaların birinin həyətində bərk tullantıların qalaqlanması aşkar edilib. Həmin binada yaşayan vətəndaş Y.Rəcəbov barəsində də İnzibati Xətalar Məcəlləsinin 271-ci maddəsi ilə protokol tərtib edilərək 500 manat məbləğində inzibati tənbeh tədbiri tətbiq olunub.

# Qəhrəmanlarımızı tanıyaq!

*Vətən savaşı zəfərimizlə başa çatdı. İgid oğullarımız torpaqlarımızın işğaldan azad edilməsi uğrunda misli görünməyən qəhrəmanlığa imza atdılar. Bu müharibə xalqımızın Vətənə bağlılığını, onun üçün gözünü qırpmadan canından keçməyə hazır olduğunu bir daha sübut etdi.*

Qəhrəmanlıq salnaməmizin yazıldığı 44 günlük savaşda Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının əsgər və zabitləri də şücaət göstərdilər. Vətən Müharibəsi Qəhrəmanı adı alan 83 nəfərdən 4-nün Daxili Qoşunların hərbi qulluqçusu olması isə çox qürurvericidir. Gəlin bir də onları yaxından tanıyaq və tanıdaq.


Şixamir Qaflanov


Zəfər Yusibov


Füzuli İmrəliyev


Nicad Bədəlov

Vətən Müharibəsi Qəhrəmanı, "Şahin" Xüsusi Təyinatlı Dəstəsinin komandiri, polkovnik Zəfər Qəzənfər oğlu Yusibov Murovdağ istiqamətində gedən döyüşlərdə, Kəlbəcər rayonunun işğaldan azad edilməsində qəhrəmanlıq və şücaət göstərərək düşmənin xeyli canlı qüvvəsini məhv edib. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə o, Kəlbəcərin, Füzulinin, Xocavəndin, Hadrutun azad olunmasına görə və Müdafiə Nazirliyi tərəfindən "Şücaətə görə" medalları ilə təltif olunub.

Vətən Müharibəsi Qəhrəmanı, "Kobra" Xüsusi Təyinatlı Dəstəsinin komandiri, polkovnik-leytenant Füzuli Şiraslan oğlu İmrəliyev Füzuli, Cəbrayıl, Xocavənd, Kəlbəcər, Şuşa uğrunda gedən döyüşlərdə vuruşub. O, "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Vətən Müharibəsi Qəhrəmanı (ölümündən sonra), "Bəbir" Xüsusi Təyinatlı Dəstəsinin komandiri, mayor Şixamir Oruc oğlu Qaflanov Cəbrayıl rayonunun, Hadrut qəsəbəsinin və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə xüsusi igidlik göstərib. O, oktyabrın 19-da Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

"Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətən Müharibəsi Qəhrəmanı, kapitan Nicad Mehman oğlu Bədəlov Kəlbəcər, Cəbrayıl, Xocavənd, Füzuli, Şuşa uğrunda gedən döyüşlərdə mərdliklə vuruşub. Nicad Bədəlov "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

# Məqsəd maarifləndirməkdir...

**Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsi "Piyadalar, diqqətli olun!" şərti adı altında keçirilən hərəkətin təhlükəsizliyi həftəliyi ilə bağlı növbəti maarifləndirici videoçarx hazırlayıb.**

Videoçarxda gənc ailə təsvir olunub. Yeni dünyaya gələcək övladlarının sevincini yaşayan cütlük avtomobildə hərəkət edərkən sürücü arxa oturacaqda əyləşmiş xanımına baxıb söhbət edir. Bu zaman yolu keçmək istəyən piyadanı görmür və qəza baş verir. Nəticədə özü, həyat yoldaşı və piyada həyatını itirir.

Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov bildirib ki, sosial çarx piyadaları diqqətli olmağa təşviq etmək və qəzaların qarşısını almaq məqsədilə hazırlanıb. Yol nəqliyyat hadisələrinin baş verməsinə sürücülərin sükan arxasında diqqəti yayındıracaq hərəkətlər etməsi də səbəb olur.

Ona görə də bu cür intizamsızlıq və məsuliyyətsizliyin qurbanı olmamaq üçün, burada piyadaların üzərinə də məsuliyyət düşür. Piyadalar istər nizamlanan, istərsə də nizamlanmayan keçidlərdən keçən zaman sürücünün ona yol verdiyinə əmin olduqdan sonra keçidə daxil olmalıdır. Bəzən sürücülər sükan arxasında hər hansısa bir fikri yayındıracaq hərəkətlər etdikləri üçün piyada da keçidində keçəni görmür və ölümlə nəticələnən qəza baş verir.

Kürdəmir Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları piyadalarla profilaktik tədbirləri daha da gücləndirmək məqsədilə reyd keçirib.

Reyd zamanı piyada keçidindən düzgün istifadə etməyən piyadalarla maarifləndirici söhbətlər aparılıb və onlara yol hərəkəti qaydalarına düzgün riayət etmələri tövsiyə olunub.

Bundan başqa, reyd zamanı 10 nəfər piyada haqqında inzibati protokol tətbiq olunub.

# Oğurluq edənlər saxlanıldı

**Suraxanı Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində paytaxt sakini Raqif Nuriyev saxlanılıb.** Onun ayrı-ayrı vaxtlarda Hövsan və Binə qəsəbələrində yük maşınlarının ehtiyat hissələrini oğurladığı, ümumilikdə zərərçəkənlərə min manata yaxın maddi ziyan vurduğu məlum olub.

RPİ əməkdaşları tərəfindən həyata keçirilən digər bir əməliyyat zamanı isə rayon ərazisində yeni tikilməkdə olan evlərdən silsilə oğurluqlar edən şəxslər saxlanılıblar. Əməliyyat zamanı Bakı şəhər sakinləri Mirağa Seyidov, Seymur Nağıyev, Hüseyn İsmayılov və Həsən Gəncəliyev tutularaq istintaqa təqdim olunublar. Onların Suraxanı rayonunun əsasən Hövsan qəsəbəsində yeni tikilməkdə olan 10-a yaxın evdən məişət və tikinti əşyaları oğurladıqları, ev sahiblərinə ümumilikdə 15 min manata yaxın maddi ziyan vurduqları məlum olub.

Qeyd edilən faktlarla bağlı RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb.

# VETERANLARLA GÖRÜŞ KEÇİRİLİB

**1941-1945-ci illər müharibəsində 600 mindən çox soydaşımızla bərabər, ölkəmiz bütün maddi və mənəvi sərvətləri ilə faşizmə qarşı mübarizə apardı. Azərbaycanın daxili işlər orqanlarının əməkdaşları da cəbhədən cəbhəyə mübarizə yolu keçməklə, qazanılan böyük qələbəyə mühüm töhfə verdilər.**





Mayın 5-də faşizm üzərində Qələbənin 76-cı ildönümü münasibətilə Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşları daxili işlər orqanlarının qəhrəmanlıq və şücaət salnaməsində imzası olan veteranları - Əzim İbrahimov və Səfər Abdullayevlə görüşüblər.

Görüşlərdə Bakı şəhər BPİ rəisinin şəxsi heyətlə iş üzrə böyük köməkçisi, polis polkovnik-leytenantı Taleh Ağalı və Bakı şəhər BPİ Veteranlar Şurasının sədri, istefada olan polis polkovnik-leytenantı Emin Məmmədov İkinci Dünya müharibəsində azərbaycanlıların həm arxa cəbhədə, həm də ön cəbhədə böyük çətinliklərə sinə gərdiklərini, dünyanın faşizm istilasından xilas edilməsində misilsiz qəhrəmanlıqlar sərgilədiklərini qeyd ediblər. O zaman üçün ümumi vətən sayılan torpaqların qorunmasında öz vəzifəsini yerinə yetirən oğulların davamçılarının İkinci Qarabağ müharibəsində Vətən savaşına qalxdıqlarını və xalqımıza növbəti şanlı qələbəni bəxş etdiklərini xüsusilə diqqətə çatdırıblar.

İstər İkinci Dünya, istərsə də İkinci Qarabağ müharibəsi iştirakçılarına dövlət tərəfindən daim diqqət və qayğı göstərildiyi, onların problemlərinin həll edilməsinin dövlət qurumları qarşısında prioritet vəzifə kimi müəyyən edildiyi vurğulanıb.

Veteranlar müharibə illərindəki xatirələrini bölüşərək, azərbaycanlıların bu müharibədə göstərdikləri qəhrəmanlıqlardan söhbət açıbar. Daxili İşlər Nazirliyi və Bakı şəhər Baş Polis İdarəsinin rəhbərliyinin onlara göstərdiyi diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

***Rəşad Mehtiyev,***
***polis baş serjantı***

# Narkotiklərlə mübarizə tədbirləri davam etdirilir

## *Qanunsuz dövriyyədən 128 kiloqram narkotik vasitə çıxarılıb*

**Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin** əməkdaşları tərəfindən əldə edilən əməliyyat məlumatı əsasında Beyləqan rayonunda həyata keçirilən tədbir nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən, əvvəllər narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olduqlarına görə dəfələrlə məhkum edilmiş rayonun Şahsevən kənd sakinləri Veysəl Həsənov və Əbülfəz Rüstəmov saxlanılıblar. Onların üzərlərində olan bağlamalara baxış keçirilən zaman ümumi çəkisi 91 kiloqram olan narkotik vasitə, o cümlədən 61 kiloqram heroin, 1 kiloqram tiryək, 16 kiloqram qurudulmuş marixuana və 13 kiloqram psixotrop maddə olan metamfetamin aşkar olunaraq götürülüb. Veysəl Həsənov və Əbülfəz Rüstəmovun ifadələrində şəxsiyyəti hələlik istintaqa məlum olmayan xarici ölkələrdən birinin vətəndaşının sifarişi ilə külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitələri ayrı-ayrı şəxslərə çatdırmaq məqsədi ilə ölkə ərazisinə gətirdiklərini bildiriblər. Bu şəxslər narkotik vasitələrin paytaxt Bakı və bölgələrdə şəxsiyyətləri istintaqla araşdırılan şəxslərə çatdırmaqla realizə olunmasını təşkil etməli imişlər.

Baş İdarə əməkdaşlarının Sumqayıt şəhərində keçirdikləri əməliyyat zamanı şəhər sakini Elşad Süleymanov da saxlanılıb. Onun yaşadığı evdən 20 kiloqrama yaxın heroin və 1 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb. Saxlanılan şəxs külli miqdarda narkotik vasitəni tanışı olan xarici ölkələrdən birinin vətəndaşından satmaq məqsədi ilə aldığını bildirib.

**Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin** əməkdaşları tərəfindən Astara rayonunda həyata keçirilən növbəti əməliyyat zamanı əvvəllər məhkum olunmuş Kamran Ağayev saxlanılıb. Onun evinə baxış zamanı ümumi çəkisi 6 kiloqramdan çox narkotik maddə, o cümlədən, 1 kiloqram 400 qram heroin, 2 kiloqram 840 qram marixuana, 2 kiloqram 750 qram tiryək, 100 qrama yaxın metamfetamin və 1 ədəd sənədləri olmayan ov tüfəngi aşkar edilib.



Baş İdarə əməkdaşlarının Sabunçu rayonunda həyata keçirdikləri əməliyyat nəticəsində isə narkotik vasitələrin satışı ilə məşğul olan Xalid Vəlişov saxlanılıb. Onun Sabunçu rayonunda gizlətdiyi yerdən satış məqsədi ilə əldə edib saxladığı 4 kiloqram 580 qram heroin aşkar edilib.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı Baş İdarənin əməkdaşları tərəfindən paytaxtın Nəsimi və Xətai rayonlarında keçirilən əməliyyatlar zamanı əvvəllər məhkum olunan Asim Rəsulov, Zöhrab Nəbiyev, Zaur Məmmədov və Zaur Quliyev saxlanılıblar. Polislər tərəfindən Asim Rəsulovdan 1 kiloqram 215 qram, Zöhrab Nəbiyevdən isə 1 kiloqram 86 qram heroin və metamfetamin aşkar olunub. Həmçinin Zaur Quliyevin üzərindən və yaşadığı ünvandan müxtəlif adda ümumi çəkisi 3 kiloqram 528 qram narkotik vasitə, eləcə də min ədəd psixotrop tərkibli həb, 2 ədəd elektron tərəzi aşkar olunaraq götürülüb. Zaur Quliyevdən həmçinin, narkotik vasitələrin satışından əldə etdiyi pul vəsaitləri də aşkar edilib.

Bununla da Baş İdarə əməkdaşları tərəfindən son 1 həftə ərzində keçirilən əməliyyatlar nəticəsində qanunsuz yollarla ölkə ərazisinə gətirilən yüksək təsiredici xassəyə malik ümumi çəkisi 128 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddənin realizə olunmasının qarşısı alınıb.

***Anar Qafarov,***
***polis kapitanı***

*Vətən savaşının ilk günlərində mənfur düşmən Tovuz istiqamətində təxribata əl atsa da ordumuzun güclü müqaviməti ilə üzləşdikdən sonra ağır itkilərlə geri çəkilməyə məcbur oldu.*

*O günlər indi arxada qalıb. Tovuzlular səngərdə, sərhəddə əsgərinə və gecəli-gündüzlü asayişi qoruyan polisinə güvənib gündəlik qayğıları ilə yaşayır, yaradırlar.*

*Təbiətin bu xoş çağında Xidmətimizin əməkdaşları Tovuzda olub, polisin xidmətini fotoaparatın yaddaşına köçürüblər.*












# "Sovqat" gətirmişdilər...

**Paytaxtın Nizami rayonunda qadına qarşı quldurluq edilib. Zərərçəkən şəxs Nizami Rayon Polis İdarəsinin 25-ci Polis Şöbəsinə müraciət edərək yaşadığı mənzildə tək olan zaman bir hicablı qadının mənzilin qapısını döyərək qonşu olduğunu və onlara Ramazan ayı münasibəti ilə sovqat gətirdiyini qeyd edib.**

Ev sahibi qapını açandan dərhal sonra pusquda dayanan 2 naməlum şəxs mənzilə daxil olublar. Həmin şəxslər zərərçəkənin burun nahiyəsinə yumruqla zərbə endirərək, əllərində olan bıçaqla hədələyib pul və qızıl-zinət əşyaları tələb ediblər. Zərərçəkən evdə pul olmadığını bildirib. Evə basqın edən şəxslər dəyəri min manat olan qızıl-zinət əşyalarını götürərək hadisə yerindən qaçıblar.

Məlumatla əlaqədar Nizami RPİ və 25-ci PŞ-nin əməkdaşlarından ibarət əməliyyat-axtarış qrupu yaradılıb, hadisə yerinə baxış keçirilib



və zəruri əməliyyat-istintaq hərəkətləri icra edilib. Təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən şəxslərdən ikisi - Kənan Müzəfferli və Dilbər Hacıyeva saxlanılıblar.

Araşdırma zamanı müəyyən edilib ki, dəstə üzvləri hadisə yerinə Kənan Müzəfferlinin avtomobili ilə gəliblər. Müşahidə kameralarından yayınmaq üçün avtomobilin 90-PZ-465 dövlət qeydiyyat nişanındakı "P" hərfini xüsusi vasitələrlə "R" ilə əvəzləyiblər. Dilbər Hacıyeva isə ilkin ifadəsində hadisədən əvvəl həm ev sahibini qapını açmağa inandırmaq, həm də kameralardan yayınmaq üçün baş örtüyündən istifadə etdiyini bildirib.

Dəstə üzvlərinin binaya daxil olmaları və hadisə yerindən yayınmaları təhlükəsizlik kameraları vasitəsi ilə də lentə alınıb.

Faktla bağlı toplanan materiallar RPİ-nə göndərilib, istintaq tədbirləri davam etdirilir.

**ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ**

**Naxçıvan Şəhər Polis İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini E.Məmmədov 100 dollarlıq saxta əskinası satarkən saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 30 ədəd 100 dollarlıq saxta əskinas aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Suraxanı RPİ 33-cü PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Zığ qəsəbə sakini, əvvəllər məhkum olunmuş F.Heydərov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 8 qrama yaxın heroin aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə onun evinə baxış zamanı oradan 1 kiloqram 200 qram heroin, 3 kiloqram 361 qramdan artıq marixuana və 160 qrama yaxın həşiş götürülmüşdür.

◆◆◆

**Xəzər RPİ 3-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisindəki 5 evdən pul, qızıl-zinət və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş T.Muxtarov saxlanılmışdır.

◆◆◆

**Nizami RPİ-nin 24-cü Polis Şöbəsinə** müraciət edən Bakı şəhər sakini E.Səfərov mayın 2-də B.Nuriyev küçəsində naməlum şəxslərin onu bıçaq və tapançaya bənzər əşya ilə hədələyib 1700 manat pul tələb etdiyini, vermədikdə isə 600 manat dəyərində mobil telefonunu aldıqlarını bildirmişdir.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən C.Musayev, F.Musayev, E.Məmmədov, X.Qocayev və əvvəllər məhkum olunmuş R.Sarızadə müəyyən edilərək saxlanılmışlar.

◆◆◆

**Sabirabad RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Qaratəpə kənd sakini Ə.Süleymanova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 129 ədəd çətənə kolu aşkar edilərək götürülmüşdür.

Davam etdirilən tə dbirlərlə onun narkotik vasitəni həmkəndlisi N.Kərimovla birgə əkməsi müəyyən edilmişdir. Ə.Süleymanov və N.Kərimov saxlanılmışlar.

# "Yolunuzu bizdən salın!"

## Respublika üzrə onlayn keçirilən yarışın qalibləri müəyyənləşdi

Bugünlərdə 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "Yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"na uyğun olaraq "Yolunuzu bizdən salın!" mövzusunda Ağdam, Tərtər, Füzuli, Qubadlı, Xocalı, Şuşa, Naftalan, Bərdə, Yevlax rayon uşaq-gənclər inkişaf mərkəzlərinin komandaları arasında respublika üzrə keçirilən onlayn yarışa yekun vurulub.



Yarış iki hissədən ibarət olub. Qırx beş nəfər şagirdin cəlb olunduğu yarışın I hissəsində mövzu ilə bağlı rəsm çəkilib, II hissədə isə uşaqların yol hərəkəti qaydaları ilə bağlı nəzəri bilikləri yoxlanılıb.

Nəticələr DİN Baş Dövlət Yol Polisi İdarəsinin, adı çəkilən rayonların Dövlət Yol Polisi bölmələrinin əməkdaşları tərəfindən qiymətləndirilib.

Yarışın nəticəsinə görə Qubadlı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin komandası I, Yevlax rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin komandası II, Şuşa rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin komandası isə III yerə layiq görülüblər.

*Natiq Abdullayev,*
*polis mayoru*

# Daha bir idman uğurumuz

## Yetirməmiz ilk görüşdə üstünlük qazanıb






**Aprel ayının 19-dan 26-dək Polşanın paytaxtı Varşavada sərbəst və yunan-Roma güləş növü üzrə Avropa çempionatı keçirilib. Yarışda DİN-in İdman Cəmiyyətinin yetirmələri Əli Rəhimzadə və Eldəniz Əzizli qüvvələrini sınayıblar.**

Sərbəst güləş növü üzrə 65 kiloqram çəki dərəcəsində çıxış edən Ə.Rəhimzadənin ilk rəqibi erməni təmsilçisi olub. Rəqibinin kürəyini yerə vuran yetirməmiz gürcü idmançısına da asanlıqla qalib gəlib. Yarımfinalda 6:8 xalla rusiyalı idmançıya məğlub olan Əli bürünc medala sahiblənib.

Digər təmsilçimiz Eldəniz Əzizli də bu uğuru təkrarlayıb. Güləşin yunan-Roma növü üzrə 55 kiloqramda tatamiyə çıxan bahadırımız fəxri kürsünün 3-cü pilləsinə layiq görülüb. O, ard-arda bolqar və gürcü rəqiblərinə qalib gəlib. Yarımfinalda rusiyalı idmançı ilə görüşdə büdrəyən idmançımız bürünc medal uğrunda almaniyalı təmsilçini üstələyib.

**Qeyd edək ki, onları bu yarışa DİN İdman Cəmiyyətinin əməkdaşları-"Əməkdar məşqçi"lər İlham Mustafayev və Radiq Hüseynov hazırlayıblar.**

*Teymur Əlizadə,*
*polis mayoru*

# Koronavirus xəstələri ictimai yerlərdə aşkar edilərək saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Aprelin 28-dən mayın 4-dək olan müddətdə polis əməkdaşları tərəfindən 27 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 7 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Aprel ayının 28-dən mayın 4-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 250 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 84 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 250, o cümlədən borclu şəxs qismində axtarışda olan 169 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 8 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 160 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9025
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik